# Afərin, pəhləvanlarımız!



## Güləşçilərimiz V İslam Həmrəyliyi Oyunlarını 23 medalla başa vurdular



Dünən Azərbaycanın yeganə qadın güləşçisi Jalə Əliyeva (57 kq) A qrupunda ilk görüşdə özbəkistanlı Layloxon Sabirovaya "tuşe" ilə qalib gəlib. Xanım güləşçimiz qrupda ikinci görüşündə qazaxıstanlı Laura Almaganbetovaya 9:2 hesabı ilə qalib gələrək qrup lideri kimi yarımfinala yüksəlib. Finala gedən yolda Jalə türkiyəli Elvira Kamaloğluya 9:6 hesabı ilə qalib gəlib. Həlledici mərhələdə təmsilçimizin rəqibi nigeriyalı Ester Kolavole olub. Güləş 14 :6 hesabı ilə qadın güləşçimizin xeyrinə olub və Jalə "Konya-2021"in qalibi adına layiq görülüb.

*Əvvəli 1-ci səh.*

Ümumiyyətlə, mötəbər idman yarışında pəhləvanlarımız ümumilikdə 23 medal (8 qızıl, 8 gümüş, 7 bürünc) əldə edərək tarixi qələbəyə imza atmaqda davam ediblər.

Bu, bir daha göstərir ki, Azərbaycanın adının dünyanın aparıcı güləş ölkələri sırasında çəkilməsi təsadüfi deyil. Dünyanın ən möhtəşəm idman tədbirlərində əldə etdiyimiz qələbələrin əksəriyyəti məhz güləş növünün payına düşür. Şübhəsiz, qələbəni labüd edən ən başlıca amil idmançıların onlara göstərilən yüksək qayğı və etimad müqabilində dövlət və xalq qarşısında məsuliyyətini dərk etməsi, yüksək iradə göstərərək sonadək mübarizə aparmasıdır.



60 kq çəkidə mübarizə aparan Murad Məmmədov qazaxıstanlı Yernar Fidəhmədova 4:1 hesabıyla qalib gələrək yarımfinala yüksəlib. Güləşçimiz finala gedən yolda türkiyəli Ayhan Karakuşa 10:7 hesabı ilə qalib gəlib. Finalda qırğızıstanlı Jolaman Şarşenbekovla qarşılaşan güləşçimiz uduzaraq İslamiadanı gümüş medalla başa vurub.

67 kq çəkidə yarışan Həsrət Cəfərov iranlı Məhəmməd Cavad Rezayiyə (10:3) və türkmənistanlı Beqmurat Nobatova (9:1) qalib gələrək finala yüksəlib. Finalda rəqib Qırğızıstan güləşçisi Amantur İsmayılov olub. Təmsilçimiz 3:1 hesabı ilə qalib gələrək İslamiadanın qızıl medalını qazanıb.

Həsrət həmin matçda hakimlərin onu sıxışdırdığını bildirib: "Finalda da hakimlər haqsızlıq edirdi. Özü də hakim Türkiyədən idi. Yəqin ki, doğru qərarı onlar bilir. Amma şükür Allaha, qızıl medal qazandım".

O, gələn ay Serbiyanın paytaxtı Belqradda keçiriləcək dünya çempionatından da danışıb: "Finalda güləşdiyim qırğız və ilk dövrədə məğlub etdiyim iranlı güləşçi dünya çempionatında da rəqiblərim olacaq. Bu yarışa gəlməzdən əvvəl verdiyim müsahibədə qısa və konkret demişdim ki, mən ora çempion olmağa gedirəm. Şükür Allaha da bunu etdim. Qələbəmi də Vətən müharibəsi şəhidlərinə və qazilərimizə həsr edirəm".

77 kq çəki dərəcəsində yarışan Sənan Süleymanov iranlı Amin Kaviyaninejada (4:0) və tunisli Lamjed Maafiyə (4:3) qalib gələrək finala yüksəldi. Qızıl medal uğrunda qırğızıstanlı Akjol Mahmudovla qarşılaşan güləşçimiz uduzaraq "Konya-2021"i gümüş medalla başa vurub.

Kişilərdən Məhəmməd Əhmədiyev (87 kq) B qrupunda ilk görüşdə cəmi 26 saniyəyə tacikistanlı Bəxtəvər Həsənovu 8:0 hesabıyla məğlub edib. Təmsilçimiz daha sonra qırğızıstanlı Atabəy Azisbəyə sonuncu xal prinsipinə əsasən (3:3) məğlub olub. Yarımfinalda isə özbəkistanlı Jalqasbay Berdimuratova 0:8 hesabı ilə uduzan Məhəmməd bürünc medal üçün qırğızıstanlı Atabek Azisbekovla qarşılaşıb. Görüşdə uduzan güləşçimiz İslamiadanı medalsız başa vurub.

130 kq çəki dərəcəsində yarışan Sabah Şəriəti B qrupunda ilk görüşdə özbəkistanlı Mumincan Abdullayevə 4:1, daha sonra qazaxıstanlı Anton Savenkoya 5:1 hesabı ilə qalib gələrək qrup lideri kimi yarımfinala yüksəlib. Yarımfinalda türkiyəli Osman Yıldırıma 1:3 hesabıyla məğlub olan Sabah bürünc medal üçün qazaxıstanlı Anton Savenko ilə güləşib və bu görüşdən qalib ayrılıb.